

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 68 (23.710)

*16 aprel 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan və Çunçin şəhərləri arasında əməkdaşlıq memorandumu imzalanıb

*Aprelin 14-də Çinin Çunçin şəhərində "Naxçıvan Muxtar Respublikası (Azərbaycan Respublikası) ilə Çunçin şəhəri (Çin Xalq Respublikası) arasında dostluq və əməkdaşlıq əlaqələrinin yaradılması haqqında Memorandum"un imzalanması mərasimi keçirilmişdir.*





Memorandumu Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Hökuməti adından Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əkrəm Zeynallı, Çin Xalq Respublikasının Çunçin şəhər Xalq Hökuməti adından isə Çunçin şəhərinin Meri Tan Lienci imzalamışdır.

Naxçıvan Muxtar Respublikası ilə 32 milyondan çox əhalisi, 82,4 min kvadratkilometr ərazisi və təqribən, 334 milyard Amerika Birləşmiş Ştatları dolları həcmində ÜDM-i ilə Çinin mərkəzi tabelikli 4 şəhərindən biri olan Çunçin şəhəri arasında imzalanmış sözügedən memorandumda ticarət-iqtisadi, mədəniyyət, təhsil, elm və texnika, səhiyyə, idman və turizm sahələrində ikitərəfli əməkdaşlığın fəal inkişaf etdirilməsi və genişləndirilməsi nəzərdə tutulur.

Mərasimdə çıxış edən səfir Əkrəm Zeynallı Azərbaycanın Çinlə ikitərəfli əlaqələrə böyük əhəmiyyət verdiyini və bu əlaqələri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu diqqətə çatdırmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpin arasında qarşılıqlı hörmət və etimada əsaslanan fəal siyasi dialoqun bütün sahələrdə əməkdaşlığın dərinləşməsi üçün geniş imkanlar yaratdığını qeyd edən səfir, bu xüsusda, iki ölkənin regionları arasında da birbaşa əməkdaşlıq qurulmasının əhəmiyyətindən bəhs etmişdir. Bildirilmişdir ki, bu sənəd qədim tarixi, zəngin mədəni irsi, strateji coğrafi mövqeyi, ən əsası isə geniş iqtisadi və nəqliyyat-tranzit potensialı ilə seçilən Naxçıvan Muxtar Respublikası ilə Çunçin şəhəri arasında əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı investisiya layihələrinin reallaşdırılmasına imkan yaratmaq, təhsil sahəsində mübadilələr həyata keçirmək, nəqliyyat-logistika sahəsində işbirliyi formalaşdırmaq və turizm potensialını qarşılıqlı təşviq etməklə, nəinki regionlararası əməkdaşlığa, o cümlədən Azərbaycan-Çin ikitərəfli münasibətlərinin inkişafına da töhfə verəcəkdir.

Azərbaycanın həm siyasi, həm də iqtisadi baxımdan ən strateji bölgələrindən biri olan Naxçıvan Muxtar Respublikası ilə Çunçin şəhəri arasında dostluq və əməkdaşlıq əlaqələrinin qurulmasına dair memorandumun imzalanmasını əlamətdar hadisə kimi qiymətləndirən Çunçin şəhərinin Meri Tan Lienci bu sənədin rəhbərlik etdiyi şəhərlə Naxçıvan arasında əməkdaşlığın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdiyini vurğulamışdır. Çunçin şəhərinin ən tanınmış şirkətlərindən biri olan və əsasən, avtomobil istehsalı üzrə ixtisaslaşmış Lifan korporasiyasının Naxçıvan Muxtar Respublikasında uğurlu fəaliyyətini qeyd edən Mer Tan Lienci sözügedən memorandumun digər irihəcmli Çunçin şirkətlərini də Naxçıvan Muxtar Respublikasına sərmayə yatırmağa təşviq edəcəyinə inamını ifadə etmişdir. Çunçin şəhərinin Çindən Avropaya yükdaşımalar üzrə əsas qovşaqlardan biri olmasına diqqəti yönəldən Mer gələcəkdə Azərbaycanla Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımalar sahəsində əməkdaşlıq etməkdə, eləcə də Azərbaycan məhsullarının Çunçin bazarında daha geniş təmsil olunmasında maraqlı olduqlarını söyləmişdir. Naxçıvan Muxtar Respublikasının turizm potensialının Çunçində, Çunçinin turizm potensialının isə Naxçıvan Muxtar Respublikasında təşviq edilməsi üçün turizm agentliklərinin iştirakı ilə təqdimatların təşkilini məqsədəuyğun hesab edən Tan Lienci hər iki bölgənin əhalisini bir-birinə daha da yaxınlaşdıracaq qarşılıqlı mədəni tədbirlərin keçirilməsinin zəruriliyini vurğulamışdır.

Səfir Əkrəm Zeynallı Çunçinə səfəri çərçivəsində Tan Lienci ilə birlikdə Beynəlxalq Ticarətin Təşviqi üzrə Çunçin şəhər Ticarət Palatasının rəhbəri He Yi ilə görüşmüş və Naxçıvan Muxtar Respublikası ilə Çunçin şəhəri arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi imkanları ilə bağlı fikir mübadiləsi aparmışdır.

***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi***

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bir sıra qərarlar qəbul etmişdir. Belə ki, "Tələbə yataqxanalarından istifadə Qaydaları", "Tələbə yataqxanalarında yaşayış sahəsinin kirayə müqaviləsinin Nümunəvi Forması" və "Tələbə yataqxanalarında yaşayış sahəsindən istifadəyə görə haqqın aylıq məbləği" təsdiq edilmişdir. Müvafiq qaydalara əsasən tələbələr yataqxanaya tələbə ilə yataqxana müdiriyyəti arasında bağlanan kirayə müqaviləsi əsasında yerləşdirilirlər və bu məqsədlə növbəti dərs ili başlayanadək yataqxanada yaşamaq istəyən tələbələrin qeydiyyatı aparılmalıdır.

Eyni zamanda Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilmişdir. Nazirlər Kabinetinin 2015-ci il 2 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda edilmiş dəyişikliyə görə Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması üçün zəruri olan sənədlər müəyyən olunmuşdur.

Nazirlər Kabinetinin 2021-ci il 1 aprel tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında sığorta ödənişinin verilməsi Qaydası"nda və "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına verilən ipoteka kreditləri üzrə borcalanın aylıq məcmu gəlirinin hesablanması Qaydası"nda, 5 aprel tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nda və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə bağlı bəzi qərarlarda dəyişikliklər edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2021-ci il 2 aprel tarixli Qərarı ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi", 5 aprel tarixli Qərarı ilə "Məhkum edilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin Siyahısı", "Məhkum edilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları" təsdiq edilmişdir.

Nazirlər Kabinetinin 2021-ci il 7 aprel tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları", "Naxçıvan Muxtar Respublikasında əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi Qaydaları" və "Naxçıvan Muxtar Respublikasında əlvan və qara metal tullantılarının əldə edilmə mənbəyinə dair Tələblər" təsdiq edilmişdir. Müvafiq qaydalara əsasən Naxçıvan Muxtar Respublikasının ərazisində metal tullantılarının qəbulunu yalnız qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin alınması obyektləri qanunvericiliyə əsasən dövlət reyestrində təhlükə potensiallı obyektlər olaraq qeydiyyatdan keçmiş sahibkarlıq subyektləri həyata keçirir.

Nazirlər Kabinetinin 9 aprel tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələri"ndə və "Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklər edilmişdir.

Həmçinin "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahəsinə, məhsul istehsalına, toxum və ting satışına görə verilən subsidiya əmsallarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 dekabr tarixli 176 nömrəli Qərarında dəyişiklik edilmişdir. Belə ki, kənd təsərrüfatı məhsullarına əkin sahəsinə görə verilən subsidiyalarda müvafiq dəyişiklik edilmişdir. Həmin dəyişikliyə əsasən təkrar əkinlər üçün də əkin subsidiyası müəyyən olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 14 aprel tarixli 96 nömrəli Qərarı ilə koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən müddətli əlavənin ödənilməsi iyun ayının 1-dək müəyyən edilmişdir.

Həmin tarixdə "Fiziki şəxslər tərəfindən nəqliyyat vasitələrinə texniki xidmət göstərilməsi Qaydaları" təsdiq edilmişdir. Qaydalara əsasən texniki-təmir obyektləri hərəkətə maneə olmadan avtomagistralların və yolların kənarında yerləşdirilməklə, istirahət zonalarından, təhsil və səhiyyə müəssisələrindən mövcud normalara uyğun məsafədə olmalıdır. Nəqliyyat vasitələrinə texniki xidmət yalnız qapalı, qeyri-yaşayış sahələrində göstərilə bilər. Nəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir obyektlərinin işçiləri texnoloji prosesin tələblərinə müvafiq ixtisaslaşmaya malik olmalı, onların ixtisası təlim və ya təhsil haqqında sertifikatla təsdiqlənməlidir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Operativ vergi nəzarəti tədbirləri görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən mart ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlamalar, monitorinqlər davam etdirilib, 10 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 2 vergiödəyicisində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmaması, 1 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi, 7 vergiödəyicisinin isə "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 2 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb.



***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## *"ASAN xidmət"* mərkəzinin binasının tikintisi sürətlə davam edir



Muxtar respublikamızda həyata keçirilən tikinti-quruculuq işləri şəhərimizin simasını dəyişməklə yanaşı, həm də əhalinin rahatlığına xidmət edir. Bu istiqamətdə icra olunan layihələrdən biri də Naxçıvan şəhərində ötən ilin aprel ayından tikintisinə başlanılan "ASAN xidmət" mərkəzinin binasıdır. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada beton-qəlib işləri başa çatdırılıb, zirzəmi hissəsində hörgü işləri yekunlaşdırılıb. Layihəyə əsasən binanın zirzəmisində yeməkxana, anbar, texniki otaq, qazanxana, bufet, mətbəx, arxiv və ofis, laboratoriya yerləşəcək. Digər mərtəbələrdə isə psixoloji xidmət, həkim, mühafizə, işçilər üçün otaqlar, iclas zalı, arxiv və ofis, laboratoriya nəzərdə tutulub.

Aldığımız məlumata görə, xarici görünüşü, daxili dizaynı və tərtibatı ilə seçiləcək mərkəzdə vətəndaşlara operativ və müasir tələblərə cavab verən zəruri xidmətlər göstəriləcək.

Qeyd edək ki, inşaat işlərini "Gəmiqaya Holdinq"in inşaatçıları həyata keçirir.

**✍ Məcid RƏŞADƏTOĞLU**

# Yurdumun sərhədində alınmaz istehkamdır






***Yolumuz Azərbaycanın döyünən ürəyi Naxçıvanın ən çətin günlərdə düşmənin qarşısında alınmaz qalaya, səddə çevrilən Sədərəyinədir. O Sədərək ki daşına, torpağına qanı ilə tarix yazan igid, qəhrəman Vətən övladlarının sayəsində düşmənin canına qorxu salır, mərd duruşuyla dosta qürur, düşmənə gözdağı verir. Tarixin keşməkeşli yollarında xalqımızın igidliyi bu məkanın həm Vətən torpaqlarının ilk, həm də son sərhədi olduğunu, müqəddəsliyini sübuta yetirdi.***

Düşmənin bir addımlığındakı doğma yurdumuz, tarixboyu torpağımıza göz dikənlərə qeyrətdən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən ucaldılmış bir sədd olub. Bu səddin, bu qalanın hər daşı sevgidən, Vətən məhəbbətindən, palçığı şəhid qanından yoğrulduğu üçün düşmən üzünə açmayıb qapıları. Döyüşüb, mübarizə aparıb, qalib gəlmişik. Həmin çətin günlərdən alnıaçıq, üzüağ çıxan yurdumuz keçən 30 ildə dirçəldi, abadlaşdı, yenidən gül-gülüstana çevrildi. Və budur, yazın gəlişi ilə hüsnünü al-əlvan yaraşığa bürüyən Sədərəkdəyik. Rayona qədəm qoyan kimi yolun sağ tərəfində bizi göylərə yüksələn Zəfər Bayrağı salamlayır. Ötən ay Ali Məclisin Sədri Sədərək rayonundakı Bayraq Meydanında üçrəngli bayrağımızı İkinci Qarabağ müharibəsində qazanılan qələbə və şəhidlərin xatirəsinə qaldırmışdı.

Bu gün şanlı bayrağımız daha qürurludur, daha yüksəklərdə dalğalanır. Ay-ulduzu daha gur şölə saçır. Çünki o, illərdir, həsrətində olduğu torpaqlara sancıldı, səmasında parladı Qarabağın. Şuşaya, Laçına doğru yol aldı, igid Azərbaycan əsgərinin əllərində göylərə yüksəldi, sancıldı Qubadlıya, Zəngilana, Füzuliyə. İgid Vətən oğulları silahı çiynində, onu köksündə daşıdı. Onların yüksəldiyi zirvə şəhidlik oldu, o zirvənin ən yüksək yerində isə üçrəngli Zəfər Bayrağımız var.

Heydərabad qəsəbə sakini Saleh Heydərovla Bayraq Meydanında həmsöhbət oluruq:

– Həyata keçirilən genişmiqyaslı quruculuq siyasəti bu gün artıq öz müsbət nəticələrini verməkdədir. Ulu öndərimizin siyasətinin nəticəsidir ki, Azərbaycanımız daha da çiçəklənib, ərazi bütövlüyünü bərpa edib, dünya dövlətləri arasında öz layiqli yerini tutub, regionumuzun qüdrətli ölkələrindən birinə çevrilib. Yaxın günlərdə rayonumuzun görkəmli yerində Bayraq Meydanının istifadəyə verilməsi Sədərək sakinlərinə dövlətimizin ən böyük və qiymətli hədiyyəsidir. Bayrağımızın azad səmamızda dalğalanması hər bir sədərəkliyə sevinc yaşadır. Bu gün ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Hər birimiz müstəqil dövlətin vətəndaşı olaraq başımızı dik tutur, üçrəngli bayrağımız yüksəklərdə dalğalandıqca qürurlanırıq. Rayonumuzun 30 illik yubileyinə töhfə olan belə gözəl bir Bayraq Meydanının inşasına göstərilən qayğıya görə mən bütün Sədərək sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.





Sədərək kənd sakini Nadir Məmmədov deyir ki, 1990-cı illərdə ermənilər bu torpağın bizim üçün nə qədər əziz və müqəddəs olduğunu çox gözəl anladılar. Təkcə 1990-cı ilin mart ayında ermənilər Sədərəyə 300-ə yaxın top mərmisi atdı, 500-ə yaxın evi, məktəb binasını, sosial obyektləri dağıtdı. Döyüşlərdə onlarla igid canından keçdi. Bütün bunlara baxmayaraq, mübarizə əzmimiz itmədi, düşmənə aman vermədik. Bu gün Azərbaycanımızın azad səmasında –Sədərəkdə hakim yüksəkliklərdə və Bayraq Meydanında bayrağımız dalğalandıqca onların da ruhu şad olur. Belə gözəl bir meydanın inşa edilməsi rayonun hüsnünə də gözəllik qatır. Qərbə açılan qapımızdan gəlib-gedən hər bir yerli və əcnəbi sakin vüqarla dalğalanan bayrağımızı seyr edir.

Burada olarkən məktəblilərin də Bayraq Meydanını gəzməyə gəldiklərini görüb onlara yaxınlaşırıq. Doqquzuncu sinif şagirdi Hüseyn Hüseynov deyir ki, bayrağımız ən uca, ən ali dəyərimizdir. Bizim hamımız qürur duyuruq. Bayrağımız enməsin, daim yüksəlsin deyə, canından keçən şəhidlərimizi ehtiramla anır, onların davamçıları olmağa can atırıq.

Bayraq Meydanından xoş təəssüratlarla ayrılır, rayonda ötən ay istifadəyə verilən obyektlərdən biri olan Sədərək Radio-Televiziya Ötürücü Stansiyasına üz tuturuq. Burada qurulan bina müasir üslubdadır. Yaradılan şərait həm işçilərin rahatlığını, həm də müasir avadanlıqlarla teleradio verilişlərinin ötürülmə keyfiyyətini artırıb. Stansiyanın açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Bu gün Sədərək rayonunu əhatə edən radio-televiziya ötürücü stansiyası istifadəyə verilir. Bununla da, rayon ərazisində teleradio yayımının keyfiyyəti yaxşılaşacaqdır. Teleradio yayımı əhəmiyyətli məsələdir. Ona görə də muxtar respublikada televiziya kanallarının paket formasında yayımı həyata keçirilir. Çünki teleradio yayımının düzgün tənzimlənməsi həm də milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət edir. Hazırda bir çox ölkə beynəlxalq qanunlara əhəmiyyət vermədən televiziya verilişlərini öz sərhədlərindən kənara da yayımlayır. Bu da ölkədaxili televiziyaların yayımına, eyni zamanda milli-mənəvi dəyərlərin aşılanmasına təsir edir. Əhalini bu təsirlərdən qorumaq üçün muxtar respublikada müasir ötürücü stansiyalar qurularaq teleradio yayımı həyata keçirilir".***

Bayram Salahov altı ildir ki, mühəndis işləyir. Deyir ki, dövlət qayğısını hər an hiss edirik. Rayonumuz mənfur düşmənlə sərhəddə yerləşsə də, burada hər sahədə inkişaf var. Hər bir iş yerində müasir şərait yaradılıb. Bizim bundan önceki binamız yararsız vəziyyətdə idi. Lazımi avadanlıqlar olmadığı üçün yayımın keyfiyyəti də aşağı idi. Ötürücü stansiyanın istifadəyə verilməsi ilə sədərəklilərin televiziya verilişlərinə keyfiyyətli şəkildə baxmaları təmin edilib.

Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni, müasir bina ilə təmin edilməsinə göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirən mühəndis onu da qeyd edir ki, muxtar respublikada ilk dəfə olaraq stansiyada 12 kanalın bir monitorda izlənməsinə imkan verən proqram təminatlı "Multiview" sistemi istismara verilib. Bununla yanaşı, stansiya rəqəmsal televiziya vericisi, İtaliyanın "Elenos" şirkətinin istehsalı olan avtomatik köklənmə sistemi ilə təchiz edilib, 3 yeni FM verici, fiber-optik sonlandırma avadanlıqları, "Azercell", "Naxtel", "Azərconnect" mobil operatorlarının baza stansiyaları quraşdırılıb. 75 metrlik qüllədə isə mobil operatorların baza stansiyalarının, rəqəmsal televiziya və radio vericilərinin anten-fider sistemləri, radiorele linklərinin verici-qəbuledici avadanlıqları qoyulub. Bütün bunlar isə insanların həyat şəraitinin yaxşılaşdırılmasına hesablanmaqla bərabər, dövlət qayğısının təzahürüdür.

Qədim Sədərək tarixin heç bir dövründə indiki kimi inkişaf edib gözəlləşməmişdir. Qədirbilən sədərəklilər bu gözəl günləri onlara bəxş edən ulu öndərin əbədiyaşar ruhu qarşısında baş əyir, onun yolunun sadiq davamçısına minnətdar olduqlarını bildirirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**

*Ailə təsərrüfatlarımız*

# Gülüstan kəndindəki quşçuluq təsərrüfatı daxili bazarı keyfiyyətli məhsullarla təmin edir

*Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında çoxşaxəliliyin təmin olunması diqqət mərkəzində saxlanılır, yeni istehsal sahələri yaradılır, əhalinin məşğulluğu təmin edilir. Muxtar diyarımız kənd təsərrüfatı regionu olduğundan burada aqrar bölmənin müxtəlif sahələri inkişaf etdirilir. Xüsusilə heyvandarlığın inkişafı son illərdə muxtar respublikanın daxili tələbatının ödənilməsinə öz töhfəsini verir.*

Heyvandarlıq kənd təsərrüfatında mühüm sahələrdən biri hesab olunur. Quşçuluq isə heyvandarlıqda daha geniş yayılmış təsərrüfat sahələrindəndir. Məlumdur ki, hələ qədimdən quşçuluq ev təsərrüfatı kimi daha geniş yayılıb, sonralar isə kənd təsərrüfatının müstəqil sahəsi kimi formalaşıb və inkişaf edib. Muxtar respublikamızda da bu sahə analoji inkişaf yolu keçib. Bu gün diyarımızda quşçuluğun əhalinin daxili istehsal hesabına quş əti və yumurta ilə təminatında xüsusi payı var. Muxtar respublikada ev təsərrüfatlarında və kiçik sahibkarlıq subyektlərində toyuq əti və yumurta istehsalını artırmaq məqsədilə mühüm işlər görülüb, yeni istehsal müəssisələri yaradılıb, köhnələri dövlət tərəfindən verilən güzəştli kreditlər hesabına yenidən qurulub.

Quşçuluqda əsas məsələlərdən biri də yem istehsalının ödənilməsidir. Son illərdə bu sahədə də mühüm işlər görülmüş, qarışıq yem istehsalı sahələri istifadəyə verilmişdir. Heyvandarlıqda və quşçuluqda qüvvəli yemlərə olan tələbatı ödəmək məqsədilə Naxçıvan şəhərində qarışıq qüvvəli yem, Ordubad rayonunda quş yemi və Culfa rayonunda heyvan yemi istehsalı sahələri yaradılmışdır. Belə istehsal sahələri quşçuluqda, ümumilikdə isə heyvandarlıqda yeni mərhələnin başlanmasına imkan vermişdir. Eyni zamanda yeni təsərrüfat sahələrinin yaradılmasına stimul olmuşdur. Son 6 ildə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində, Babək, Culfa, Kəngərli rayonlarının hər birində 1, Şərur və Şahbuz rayonlarında 2 təsərrüfat olmaqla, ümumilikdə, 8 yeni quşçuluq təsərrüfatı yaradılmışdır. Bundan əlavə, ötən dövrdə muxtar respublikada quşçuluq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Quşçuluq Birliyi yaradılıb.



Naxçıvanda elə fərdi təsərrüfat yoxdur ki, orada quşçuluğun ən azı 2-3 növü inkişaf etdirilməsin, daha doğrusu, onun çoxnövlülüyü təmin olunmasın. Bu da imkan verir ki, quşçuluq təsərrüfatları və damazlıq yumurta istehsalı intensiv inkişaf etsin. Son illərdə fərdi təsərrüfatını böyüdərək onu dolanışıq yoluna çevirənlər də az deyil. Belə təsərrüfatlardan biri də Culfa rayonunun Gülüstan kəndində fəaliyyət göstərir. Fermer Bəhruz İsmayılova məxsus olan bu təsərrüfatda, əsasən, hinduşka saxlanılır. Təsərrüfat sahibi bizimlə söhbətində bildirdi ki, 10 ilə yaxındır, bu işlə məşğulam. Təsərrüfatımı genişləndirmək məqsədilə 40 min manat güzəştli kredit götürdüm. İndi təsərrüfatımda 2000-ə yaxın hinduşka var. Öyrəndik ki, saxlanılan quşların 1000-i yumurtalıq, digərləri isə ətlik cinslərdir.

Bəhruz İsmayılov bu növ quşlar haqqında məlumat verərək deyir ki, Azərbaycanda ən çox qara, tunc və ağ enlidöş hinduşka cinslərinə rast gəlmək olar. Onlar ətinin yaxşı keyfiyyəti ilə seçilir, tez böyüyür və müxtəlif şəraitə asanlıqla uyğunlaşır. Kökəltmə zamanı 120 günlük yaşda diri çəkisi 6-7 kiloqrama çatır. Bir il ərzində yumurtlayan hind toyuqlarından isə 80-90 qram ağırlığında 100-110 yumurta əldə etmək mümkündür.

Təsərrüfatçının sözlərinə görə, hind toyuğu otlaq quşudur və otarılanda çəkisini yaxşı artıra bilir. Əgər otarmağa yer yoxdursa, onda gəzinti üçün meydança ayırmaq və hinduşkanı orada yemləmək lazımdır. Lakin onun üçün ən vacibi saxlanma yerinin quru və təmiz olmasıdır. Yəni təmizlik hər şeydən öndə gəlir. Saxlanılma yeri təmiz olarsa, quşların xəstəliklərə yoluxma ehtimalı da az olar. Bütün bunlarla yanaşı, baytarlıq xidmətləri də bu sahənin inkişafında mühüm əhəmiyyətə malikdir.

Söhbət zamanı bunu da öyrəndik ki, bu quşun ətində ördək və qazlara nisbətən dəfələrlə çox zülal var. Kulinar məqsədlər üçün istifadədə 5 aylıq dişi, 6 aylıq erkək quşlardan istifadə olunur. Belə quşların əti daha dadlı olur.

Gülüstan kəndindəki quşçuluq təsərrüfatının məhsulları, əsasən, daxili bazarda satılır. Muxtar respublikamızda təşkil olunan kənd təsərrüfatı yarmarkalarında, xüsusilə bayram günləri ərəfəsində bu təsərrüfatın məhsullarına rast gəlmək olar. Həmçinin quş ətini təsərrüfata müraciət edərək sifarişlə də almaq mümkündür.

Muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı bütün sahələrdə uğurlu nəticələrin əldə olunmasına şərait yaradıb. Gülüstan kəndindəki quşçuluq təsərrüfatı bu şəraitdən bəhrələnərək daxili bazara öz töhfəsini verməyə çalışır.

✍ **Gülcamal TAHİROVA**

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50

# Təhsillə istedad bir-birini tamamlayanda...

***Dünya ədəbiyyatının tanınmış simalarından olan Lev Tolstoy deyirdi ki, təhsilə tələbat hər bir insanda vardır. Nəfəs almaq üçün havanı sevən və axtaran xalq təhsili də sevir və axtarır. Bəli, təhsil inamlı sabahlar düşünən hər bir insana hava, su qədər vacibdir, istənilən sahədə nailiyyət əldə etmənin yeganə yolu məhz savadlı olmaqdan, biliklərə müfəssəl yiyələnməkdən və onların təcrübədə düzgün şəkildə tətbiqindən keçir. Yaradıcı düşüncəyə, əl qabiliyyətinə əsaslanan incəsənətdə isə istedad da önəmlidir və təhsillə paralel məqsədli inkişafı perspektivli, uğurlu gələcək vəd edir. Muxtar respublikamızda da məhz bu iki amil əsas götürülərək ayrı-ayrı sənət sahələri üzrə istedadlı uşaqların üzə çıxarılması, onların bilik və bacarıqlarının formalaşdırılması, ixtisaslı kadrların yetişdirilməsi yönündə illərdir, ardıcıl tədbirlərin reallaşdırılması öz bəhrələrini verməkdədir. Ali Məclis Sədrinin 2021-ci il 2 mart tarixli Sərəncamı ilə 50 illik yubileyi qeyd olunan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri sırasında da məhz bacarığı ilə təhsili bir-birini mükəmməl şəkildə tamamlayan onlarla sənət adamı vardır və həmin rəssamlar doğma diyarımızın tarixinin, mədəniyyətinin, təbiətinin, adət-ənənələrinin təbliğində rənglərin dili ilə əvəzsiz xidmətlər göstərirlər...***



Rəssamlığı özünə həyat amalı seçən onlarla naxçıvanlı gəncin yoluna ziya saçan muxtar respublikanın ali təhsil ocaqlarında bu sənətin sirləri təcrübəli pedaqoqlar, peşəkar rəssamlar tərəfindən dərindən öyrədilir. Tarixi vərəqləyəndə görürük ki, 1996-cı ildə Naxçıvan Dövlət Universitetində Pedaqoji fakültənin tərkibində Təsviri incəsənət kafedrası yaradılıb və Təsviri incəsənət, rəsmxət və əmək təlimi ixtisası tədris olunmağa başlayıb. 2010-cu ildən isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq qərarı ilə Azərbaycan incəsənət tarixi, xarici ölkələrin təsviri sənət tarixi, məktəbdə bədii tərtibat, rəsm, plastik anatomiya, rəngkarlığın əsasları və digər fənləri əhatə edən Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq ixtisasları açılıb. Təqdirəlayiq haldır ki, bu gün Rəssamlar Birliyinin üzvləri sırasında yer alan, eləcə də muxtar respublikanın ümumtəhsil məktəblərində aid fənləri tədris edən, mədəniyyət ocaqlarında, muzeylərdə çalışan, ölkə və beynəlxalq səviyyəli sərgilərdə uğurla çıxış edən rəssamların əksəriyyəti məhz Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin yetirmələridir.





Dünya musiqi tarixinin görkəmli bəstəkarlarından olan Lüdviq van Bethovenin “Yüzdə iki istedad və yüzdə doxsan səkkiz əzm dahi olmaqdır” fikrini xatırladan fakültə dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov deyir ki, bütün yaradıcı sahələrdə olduğu kimi, rəssamlıqda da bacarıq, istedad böyük önəm daşısa da, uğur qazanmağın yolu bu üstün məziyyəti inkişaf etdirmək naminə əzmlə, şövqlə çalışmaqdadır. Bəşəriyyət binə olandan bəri yaranıb formalaşan rəssamlıq müasir dövrdə öz rəngarəngliyi ilə daha da populyarlaşıb, insanların sevib-seçdiyi sənət sahəsinə çevrilib, yeni texnologiyalar, üslublar bu sahəyə də geniş surətdə sirayət edib. Bu məqamda maraqlı nüansa toxunmaq istərdim. Keçmişdə olduğu kimi, bu gün də bəziləri deyir ki, əl qabiliyyətin, istedadın varsa, zamanla səndən yaxşı rəssam çıxar, ali təhsil almağın elə bir önəmi yoxdur. Əksər həmkarlarım kimi, mən də bu fikirlə razı deyiləm. Gəlin bu barədə dərindən düşünək. Uzağa getmədən götürək elə musiqi sahəsini. Aydındır ki, az da olsa, səs tembrin varsa, mahnı oxuya bilərsən, ancaq savadın yoxdursa, musiqinin xırdalıqlarına varıb yeni nəfəs gətirmək və beləliklə də, tamaşaçını təəccübləndirmək alınmayacaq. Təbii ki, rəssamlıqda da belədir. Sözügedən məsələ ilə bağlı istənilən orta məktəbə üz tutsaq, orada gözəl əl qabiliyyətinə malik çox sayda istedadlı uşaqlar müəyyən edə bilərik. Onlar gözəl mənzərələr, fərqli əl işləri yaratsalar da, bəziləri sənətə dərindən yiyələnməyi hədəfləmir və istedad da zamanla korşalıb itir. Yüzlərlə belə nümunə göstərmək mümkündür. Məhz bu incə məqamlara əsaslanan dahilər doğru söyləyiblər ki, bir insanın dəyəri, sahib olduğu istedada görə deyil, ondan necə istifadə etdiyinə əsasən müəyyən edilməlidir. Bu baxımdan istedadından düzgün yararlanaraq özünü peşəkar rəssam kimi formalaşdırıb geniş tamaşaçı rəğbəti qazanmaq istəyən hər bir şəxs mütləq şəkildə ali təhsil almalıdır. Tədris zamanı tələbə rəssamlığın portret, natürmort, qrafika, karikatura, plakat, mənzərə və digər janrlarına dərindən yiyələnməklə yanaşı, fantaziyasını artırır, üslubunu formalaşdırır və beləcə, zamanla özünü püxtələşdirə bilir. Unutmaq olmaz ki, bu sənət Uca Yaradanın insanoğluna lütfüdür, fitri istedaddır. Məhz buna görə də rəssamlıq xəyanəti bağışlamır. Davamlı olaraq vicdanlı şəkildə çalışsan, uğurun dalınca düşməyə lüzum qalmayacaq, o, özü gəlib səni tapacaq. Tələbələrlə söhbətimizdə də hər zaman deyirəm ki, çalışın çəkdiyiniz rəsmlərdə realistlikdən çox, qeyri-adilik, fantaziya, düşüncə özünü təcəlla etsin. Çünki ən gözəl real rəsmi Allah yaradıb, biz insanoğlu ondan üstününü bacarmarıq, lakin ideyamızla yeni çalarlar ortaya qoyub fərqlilik edə bilərik. Bir də ki, əsas yaratmaq deyil, yaşatmaqdır, o sənətkar xoşbəxtdir ki, onun əl işinə baxdıqca baxılır, dövr ötsə də, özünəməxsusluğunu itirmir.

Cavid müəllim onu da qeyd edir ki, fakültədə dərslər boyakarlıq ləvazimatları, avadanlıqlarla təmin olunmuş emalatxanatipli siniflərdə keçilir ki, bu da tələbələrin yaradıcılıq potensialının sürətli inkişafına yol açır. Xalq rəssamı Hüseynqulu Əliyev, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva, Fizzə Quliyeva və sənətdə öz sözünü demiş digər təcrübəli rəssamlar bilik və bacarıqlarını gənclərə aşılamaqla onların gələcəyin peşəkar sənət adamları kimi yetişməsində müstəsna rol oynayırlar. Ali Məclis Sədrinin hamiliklə bağlı imzaladığı müvafiq sərəncamlara uyğun olaraq fakültə ilə Rəssamlar Birliyinin arasında əlaqələr daha da gücləndirilib, il ərzində birgə çox sayda tədbirlər, sərgilər, müsabiqələr təşkil olunur. Ötən il 44 gün ərzində müzəffər Ordumuzun qazandığı möhtəşəm qələbə də rəssam tələbələrin maraq dünyasına böyük mənada sirayət edib, vətənpərvər oğullarımızın qəhrəmanlıqlarından bəhs edən onlarla əsər ərsəyə gəlib. Universitetdə, həmçinin Təsviri incəsənətin tədrisi, metodikası və metodologiyası, Təsviri incəsənətin tarixi və nəzəriyyəsi adlı iki magistr ixtisası da fəaliyyət göstərir ki, bu da tələbələrə aid sahə üzrə gələcəyin alim və pedaqoqu kimi yetişmələrinə yol açır. Ümumilikdə, ali təhsil ocağında tələbələrə istedadlarını sınayıb bacarıqlarını göstərmələri, öz üzərində işləyərək nailiyyətlər əldə etmələri üçün bütün imkanlar yaradılıb. Yetər ki, bu əlverişli şəraitdən lazımınca faydalansınlar.

Naxçıvan Müəllimlər İnstitutunda 2008-ci ildən Təsviri incəsənət, rəsmxət və əmək təlimi ixtisası fəaliyyətə başlayıb, bir il sonra isə Təsviri incəsənət müəllimliyi ixtisası açılıb, ötən dövrdə ali təhsil ocağında heykəltəraşlıq, ebru, rəsm və boyakarlıq kabinələri yaradılıb. Təbiət və incəsənət fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru Rövşən Vəliyev məşhur fransız yazıçısı Emil Zolyanın “İstedad olmadıqdan sonra insan sənətkar ola bilməz, amma öz üzərində işləmədikcə də istedad bir işə yaramaz” fikrini xatırladaraq deyir ki, bütün yaradıcı sahələr kimi təsviri sənət də xüsusi istedadla yanaşı, usanmadan çalışmağı, hər gün yeni bir çalar, incəlik ortaya qoymağı, sağlam rəqabəti sevir. Təqdirəlayiq haldır ki, tələbələrimizdə bu xüsusiyyət var, çox çalışqandırlar, öz üzərlərində daim işləyir, yeniliklər ortaya qoyurlar. Müsabiqələrdə qazanılan uğurlar isə həm pedaqoji kollektivi sevindirir, həm də onlara əlavə stimul verməklə yaratmaq əzmi aşılayır. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən sərgilərdə, festivallarda ali təhsil ocağı yüksək səviyyədə təmsil olunur, il ərzində bütün əlamətdar günlərlə bağlı tələbələrimizin əl işlərindən ibarət institutdaxili sərgilər də keçirilir, əməyi olanlar layiqli qiymətini alır.



Rövşən müəllim qeyd edir ki, rəssamlıq sənətinin keçmişinə, çəkilən klassik rəsmlərə nəzər salanda hər bir əsərdə tarix, mədəniyyət, adət-ənənə, dövrün xarakterik xüsusiyyətləri gözlərimiz önündə canlanır. Müasir dövr muxtar respublika rəssamlığı, yaşayıb-yaradan sənət adamları bu baxımdan xoşbəxtdir ki, işləməyə, ortaya qoymağa mövzu rəngarəngliyi var, texniki imkanlar əlçatandır, şərait əlverişlidir. Müstəqillik illərində dövlətimizin bütün sahələrdə qazandıqları uğurlar rəssamlar üçün əsl ilham mənbəyidir. Bildiyimiz kimi, ötən il müzəffər Ordumuzun şanlı Qələbəsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsi bütün yaradıcı sahələrə yeni abhava gətirdi. Rəssamlığı həyat amalı seçən tələbələrimiz də məhz öz fəaliyyətlərində bu mövzuya geniş yer verir, Zəfər salnaməmizdə böyük payı olan şəhidlərimizin portretlərini yaradır, müharibədə yaşananları, vətənpərvər oğullarımızın şücaətlərini kətan üzərində əks etdirməyə çalışırlar. Çəkilən hər rəsmdə özünəməxsusluq, bənzərsizlik müşahidə edirik ki, bu da tədrisə cəlb olunan peşəkar rəssamlarımızın əməyinin hədər getmədiyini göstərir. Söhbətin bu yerində ümummilli liderimiz Heydər Əliyevin dəyərli bir kəlamını xatırlatmaq istərdim: ***“Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir...”*** Bu mənada, fakültəmizdə də Nizami Alıyev, Arzu Novruzov, Həbib Allahverdiyev, Həbibə Allahverdiyeva, Mahir Xəlilov kimi işinə böyük məsuliyyətlə yanaşan, sənəti sevdirən təcrübəli sənətkarlar, müəllimlər çalışır ki, bu da tələbələrin hərtərəfli yetişməsi üçün onlara böyük fürsət qazandırır. Təbii ki, müəllimin dəyəri tələbəsinin uğuru, nailiyyəti ilə ölçülür. Bu mənada, institutumuzun məzunları barədə tez-tez eşitdiyimiz xoş sədalar, qazandıqları nailiyyətlər hər birimizə qürur, fəxarət yaşadır. Hazırda təhsil alan, böyük uğur əldə edən tələbələrdən Çinar Hacıyevi xüsusi qeyd edə bilərəm. Belə ki, 2019-cu ilin yekunlarına görə “İlin rəssamı” nominasiyasının qalibi olan Çinar bir sıra sərgi-müsabiqələrdə ciddi uğurlar əldə etməklə, eləcə də bu yaxınlarda Gənclər və İdman Nazirliyinin, Rəssamlar Birliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən “Nizami dünyası” adlı rəsm müsabiqəsində birinci yer tutmaqla müəllimlərinin gələcəyi ilə bağlı inamlı fikirlərini təsdiqlədi. Çinarın timsalında bütün yaradıcı, məsuliyyətli, hazırcavab tələbələrimizə yeni müvəffəqiyyətlər arzulayıram və inanıram ki, gələcəkdə hər biri bu sənətdə layiqli mövqeyini tuta biləcək.

*Böyük yunan filosofu Sokrat deyirdi ki, təhsil bir qığılcımla atəşi yandırmaqdır, boş bir qabı doldurmaq deyil. Məhz incəsənətin digər sahələri kimi, rəssamlığa da dərindən yiyələnmək, özünəməxsus, fərqli, zövqlü əsərlər ərsəyə gətirib tamaşaçıları heyrətləndirmək üçün, ilk növbədə, bacarığın, qabiliyyətin olmalıdır ki, təhsil alaraq daha da püxtələşəsən. Lakin istedad, bacarıq yoxdursa, təhsil heç nəyi dəyişməyəcək, başqa sözlə, həyat amalını, yolunu düzgün seçib doğru addım atmalısan ki, ömrünü uğur nərdivanına aşağıdan yuxarı baxmaqla keçirmək məcburiyyətində qalmayasan...*

**Nail ƏSGƏROV**

# STEAM Tədris Mərkəzində seminar

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun pedaqoji profilli ixtisasları Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə hamiliyə verilmişdir.



Təhsil Nazirliyi 2020-2021-ci tədris ilində də hamiliyə verilmiş pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrin nəzəri və praktik biliklərini artırmalarını diqqətdə saxlayır, tələbələrin gələcəkdə peşəkar müəllim kimi inkişaf etmələrinə şərait yaratmaq məqsədilə bir sıra tədbir və layihələr həyata keçirir. Belə layihələrdən biri də müasir təlim metodlarını bilən, XXI əsr bacarıqlarını və səriştələrini mənimsəmiş müəllim yetişdirmək məqsədilə həyata keçirilən “Sabahın müəllimi” layihəsidir. Layihə çərçivəsində pedaqoji profilli ixtisaslarda oxuyan tələbələrə təhsildəki yeniliklər haqqında məlumat verilir, onların ümumtəhsil məktəblərində pedaqoji təcrübələri təşkil edilir.

Məlum olduğu kimi, 2020-2021-ci tədris ilindən başlayaraq muxtar respublikada STEAM təlim metodunun tətbiqinə başlanılmış, bu istiqamətdə mühüm işlər görülmüş, 15 məktəb və məktəbdənkənar tərbiyə müəssisələrində STEAM kabinələri, Heydər Əliyev adına tam orta məktəbdə isə STEAM Tədris Mərkəzi yaradılmışdır. Digər məktəblərdə də STEAM kabinələrinin yaradılması istiqamətində işlər aparılır. Pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrin də STEAM təlim metodunu mənimsəmələri Təhsil Nazirliyi tərəfindən diqqətdə saxlanılır.

STEAM Tədris Mərkəzində 30 tələbəyə STEAM təlim metodunun tətbiqinin öyrədilməsi və gələcəkdə müəllim kimi bu müasir təlim metodunun geniş tətbiqini həyata keçirmələri məqsədilə seminar keçirilib.

Seminarda tələbələrə innovativ inkişafın açarı olan STEAM təlim metodu və bu metodun tətbiqi zamanı STEAM metodologiyaları, Robotexnika, 3D printer və müxtəlif rəngdə çap materialı, Makeblock, mBot, Arduino BT robotlar, Mindstorms və education lego dəstləri, 3D qələmlər, Arduino və BBC Microbit proqramlama və inkişaf dəstləri, servo mühərriklər, LCD ekranlar, mikroidarəetmə modulları, RGB led və naqillər, müxtəlif ölçüdə mikromexanizmlər, kiçik elektronik komponentlər haqqında məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

*Azərbaycanda fiziki imkanları məhdud şəxslərin həyata inteqrasiyası, tibbi-sosial ekspertiza xidmətinin keyfiyyətinin yüksəldilməsi istiqamətində kompleks məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilmədir. Ümumiyyətlə, ölkədə bu şəxslərin maddi və mənəvi tələbatlarının ödənilməsi sahəsində dövlət siyasətinin formalaşdırılması və inkişaf etdirilməsi işlərinə hələ ötən əsrin 90-cı illərinin ortalarında ümummilli lider Heydər Əliyev tərəfindən başlanılıb. Ulu öndər əhalinin sosial müdafiəyə xüsusi ehtiyac duyan təbəqələrindən olan fiziki imkanları məhdud şəxslərin sosial rifahının təmin olunmasını dövlət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyən etmişdir.*

*İdman*

# Paralimpiyaçılara göstərilən diqqət bəhrəsini verməkdədir

Bu gün Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiə sisteminin sosial ədalət prinsipləri üzərində daha da gücləndirilməsində muxtar respublika rəhbərinin layihə və təşəbbüsləri mühüm rola malikdir. Bu şəxslər cəmiyyətin ən çox qayğıya ehtiyacı olan təbəqələrindən biri kimi onlara qarşı diqqət mühüm əhəmiyyət kəsb edir. Məhz Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda və 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nda bu məsələlər özünü qabarıq şəkildə büruzə verir. Eyni zamanda onların məşğulluq imkanları dəstəklənir, əmək bazarına çıxışı üçün imkanlar yaradılır. Bu gün söhbət açacağımız sağlamlıq imkanları məhdud şəxslər isə idman sahəsində qazandıqları uğurlarla heç də digərlərindən geri qalmırlar.

17 yaşlı *Nihal İmanov* stolüstü tennislə məşğuldur. Qısa vaxt kəsiyində bu idman növünün sirlərini



öyrənən Nihal Paralimpiya Federasiyasının dəstəyi ilə bir çox turnirlərdə mübarizə aparıb: "2017-ci ildə Sumqayıt şəhərində keçirilən stolüstü tennis üzrə Uşaq paralimpiya idman oyunlarında gümüş, 2019-cu ildə Xırdalan şəhərində keçirilən stolüstü tennis üzrə V Respublika Uşaq paralimpiya idman oyunlarında isə bürünc medal qazanmışam. Eyni zamanda Naxçıvan Muxtar Respublika birinciliklərində də yoldaşlıq görüşlərində fərqlənmişəm. Hazırda məlum pandemiyaya görə məşqlərimi evdə və onlayn təlimlər vasitəsilə də davam etdirirəm. Bəzən isə yarışlara Naxçıvan Uşaq Bərpa Mərkəzinin idman zalında hazırlaşıram. Yaradılan şəraitə görə muxtar respublika rəhbərinə paralimpiyaçılar adından minnətdarlığımı bildirirəm".

*Hüseyn Abdullayev* 2006-cı ildə Babək rayonunun Nehrəm kəndində anadan olub.



Uşaqlıqdan üzgüçülüyə marağı olan Hüseyn elə ilk məşqlərinə Naxçıvan Uşaq Bərpa Mərkəzinin üzgüçülük hovuzunda başlayıb: "Federasiyamız idmançıların məişət problemlərinin həllini yüksək səviyyədə təşkil edir. Bununla yanaşı, muxtar respublikanın rayonlarında yaradılan komandaların rayon yarışlarında, birinciliklərdə, yoldaşlıq görüşlərində iştirakı təmin olunur. Bütün bu amillər idmanın inkişafına böyük təkan verməklə yanaşı, həm də bizlərin cəmiyyətə faydalı şəxslər kimi yetişməsində mühüm əhəmiyyət kəsb edir. Uğurlarıma gəlincə, 2017-ci ildə Bakı şəhərində keçirilən üzgüçülük üzrə III Respublika Uşaq paralimpiya idman oyunlarında bürünc, 2019-cu ildə isə Xırdalan şəhərində üzgüçülük üzrə V Respublika Uşaq paralimpiya idman oyunlarında qızıl medal qazanmışam. Bir neçə dəfə muxtar respublika birinciliklərində fəxri kürsünün ən yüksək pilləsinə qalxmışam. İdman asudə vaxtlarımızın səmərəli təşkil olunmasında və sağlamlığımızın bərpasında bizə kömək edir. Yaradılan şərait muxtar respublika üzrə peşəkar idmançıların yetişdirilməsinə və bu sahədə ölkə və beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunmasında böyük stimuldur".

1988-ci ildə Ordubad rayonunun Kələki kəndində



anadan olan *Qafqaz Hüseynov* muxtar respublikanın ən istedadlı idmançılarından biridir. Boccia idman növü ilə məşğul olan Qafqaz Azərbaycan milli yığma komandasının da üzvüdür. 2017 və 2018-ci illərdə Bakı şəhərində keçirilən boccia üzrə IV və V respublika turnirlərində bürünc medal qazanan idmançımızın fikrincə, idman insanları fiziki cəhətdən sağlam edir, eyni zamanda gözəl milli-mənəvi dəyərlərimizi idmançılara, uşaqlara aşılayır. Yaradılan müasir idman mühiti isə gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır. Bu gün muxtar respublikada bütün federasiyalar kimi Paralimpiya Federasiyası da idmançıların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakını təmin edir. Məlum vəziyyətlə əlaqədar olaraq hazırda məşqlərimi evdə onlayn görüşlərə qoşularaq davam etdirir, özümü bu sahədə daha da təkmilləşdirirəm.

*Zahir İbrahimov*un idmana marağının kiçik yaşlarından başladığını deyən valideyni Mübariz İbrahimov bizimlə söhbətində bildirdi ki, övladı Uşaq Bərpa Mərkəzində müalicə olunarkən orada ona boccia haqqında məlumat verilib və bu da onda həvəs oyadıb.



Zahir boccia idman yarışlarında iştirak edərək xeyli uğurlar qazanıb. Bu da onun səhhətində irəliləyiş, əhvalında böyük ruh yüksəkliyi yaradıb. Belə ki, 2017-ci ildə Sumqayıt şəhərində, 2019-cu ildə isə Xırdalan şəhərində keçirilən boccia üzrə III və V Respublika Uşaq paralimpiya idman oyunlarında gümüş və bürünc medallar əldə edib. Bir neçə dəfə muxtar respublikadaxili yarışların da mükafatçısı olan Zahir hazırda məşqlərini evdə davam etdirir. Valideyn olaraq Paralimpiya Federasiyasına öz minnətdarlığımı bildirirəm ki, bütün paralimpiyaçılar kimi oğlum Zahiri də diqqətdən kənarda qoymurlar, ona da qayğı ilə yanaşırlar.

*Son Dövlət proqramları bir daha təsdiq edir ki, sağlamlıq imkanları məhdud insanların tibbi bərpası, onların digər ölkələrdə reabilitasiyasına şəraitin yaradılması, xroniki xəstələrə göstərilən ixtisaslaşdırılmış tibbi xidmətin yaxşılaşdırılması, texniki-bərpa vasitələri ilə təmin edilməsi, bədən tərbiyəsi və idmana cəlb edilməsi, sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı onlara texniki yardım göstərilməsi muxtar respublika rəhbəri tərəfindən daim diqqətdə saxlanılır. Görülən tədbirlər isə öz bəhrəsini verir, onlar cəmiyyətin aktiv üzvünə çevrilirlər. Həmçinin bu istiqamətdə həyata keçirilən tədbirlərin daha uğurlu nəticələr verməsində dövlətin ciddi siyasi iradəsi də mühüm rol oynayır. Bu kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiyası, onların istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsi, əməklərinin qiymətləndirilməsi, inklüziv əmək imkanlarının genişləndirilməsi birgə fəaliyyətin əsas istiqamətlərini təşkil edir.*

✍ **Ceyhun MƏMMƏDOV**

# Növbəti əmək yarmarkaları təşkil olunub

Muxtar respublikada əmək yarmarkalarının keçirilməsi davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkaları Babək və Şərur rayonlarında keçirilib.

Babək rayonundakı əmək yarmarkasında işaxtaranlara 7-si dövlət və 18-i özəl sektor olmaqla, ümumilikdə, 25 müəssisədən 177 boş iş yeri təqdim edilib ki, bunlardan 73-nü qulluqçu vəzifəsi, 104-nü isə fəhlə peşəsi təşkil edib. Qeyd edək ki, 31 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 17 nəfərin ictimai işlərə, 12 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin peşəkar kadrların hazırlanması məqsədilə peşə kurslarına getmək istəyən 9 şəxs qeydiyyata alınıb ki, təlim proqramını uğurla başa vuran şəxslərin münasib işlə təmin olunması üçün köməklik göstəriləcəkdir.

Şərur rayonunda keçirilən əmək yarmarkasında isə işaxtaranlara 10-u dövlət və 50-si özəl sektorda olmaqla, ümumilikdə, 60 müəssisədən 265 boş iş yeri təqdim edilib ki, bunların da 168-ni qulluqçu vəzifəsi, 97-ni isə fəhlə peşəsi təşkil edib.

Qeyd edək ki, əmək yarmarkalarında 37 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 4 nəfərin peşə hazırlığı kurslarına, 19 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Şəhər mərhələsinə yekun vurulub

***Ümumtəhsil məktəblərinin komandaları arasında "Xəmsə" milli intellektual oyunu üzrə Naxçıvan şəhər mərhələsi keçirilib.***



Məktəblilərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmə marağı artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən yarışda 8 komanda mübarizə aparıb.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi birinciliyin yekun nəticəsinə əsasən 5 nömrəli tam orta məktəbin "Gəmiqaya" komandası (4300 xal) qalib adını qazanıb və may ayında keçirilməsi nəzərdə tutulan muxtar respublika mərhələsində Naxçıvan şəhərini təmsil edəcək. 17 nömrəli tam orta məktəbin "Nəqşicahan" komandası (3950 xal) ikinci, 8 nömrəli tam orta məktəbin "Zirvə" komandası (500 xal) üçüncü olub.

Qalib komandalara diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Tibb Kolleci

## *2021-2022-ci tədris ili üçün Hərbi feldşer işi ixtisasına tələbə qəbulu elan edir*

Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasında təhsil Azərbaycan dilində, əyani formada 3 il müddətinə aparılır. Dövlət təhsilalanların qeyd olunan ixtisas üzrə pulsuz təhsil almaq hüququnu təmin edir.

Hərbi feldşer işi ixtisasına cari ildə tam orta ümumtəhsil müəssisəsini bitirən, sentyabr ayının 15-nə kimi 19 yaşı tamam olmayan və hərbi-həkim komissiyasının rəyinə əsasən təhsil almağa yararlı sayılan oğlanlar qəbul edilir.

Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul olunmaq istəyən namizədlər 20.04.2021-ci il tarixdən 20.05.2021-ci il tarixədək Naxçıvan Tibb Kollecinin direktoruna ərizə ilə müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

*1. "Abituriyentin elektron ərizəsi"nin surəti*

*2. Şəxsən yazılmış tərcümeyi-hal*

*3. Doğum haqqında şəhadətnamənin surəti (məktəbin direktoru tərəfindən təsdiq olunmuş)*

*4. Şəxsiyyət vəsiqəsinin surəti (məktəbin direktoru tərəfindən təsdiq olunmuş)*

*5. Təhsil aldığı yerdən xasiyyətnamə*

*6.Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış "Forma 63")*

*7. 2 ədəd rəngli fotoşəkil (3x4)*

*8. Valideynlərin və ya qəyyumluq edən şəxslərin razılıq ərizələri ( valideynləri vəfat etdiyi halda ölüm haqqında şəhadətnamənin surəti)*

*9.İstənilən səbəbdən hərbi tibb fakültəsində təhsil almaqdan imtina etməsinin tələbənin Naxçıvan Tibb Kollecindən xaric olunması ilə nəticələnəcəyi barədə abituriyentin götürdüyü öhdəlik*

*10. Tibbi göstərişlərə görə qanın Vasserman, İİÇV sereoloji reaksiyasına və hepatit B, C daşıyıcılığına müayinəsinin nəticələri*

*11. Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi xəstəliklər üzrə qeydiyyatda olub-olmaması haqqında arayışlar.*

Qəbul olunmuş namizədə aid sənədlər (şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənəd) namizəd tərəfindən Naxçıvan Tibb Kollecinin sənəd qəbulu komissiyasına şəxsən təqdim olunur.

# Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul aşağıdakı qaydada həyata keçirilir

Namizədlər "Abituriyentin elektron ərizə"sində orta ixtisas təhsili formasını seçərək, Naxçıvan Tibb Kollecinin direktoruna ərizə ilə müraciət edir və Hərbi-həkim komissiyasından keçirilir (namizəd hərbi xidmətə yararlılığını təyin etmək üçün Naxçıvan Tibb Kollecinin göndərişi əsasında Hərbi-həkim komissiyasından keçirilərək rəy alır). Hərbi-həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu vaxtı bildiriləcəkdir. Hərbi-həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər qeydə alınaraq, namizədlərin adlı siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. Qeydə alınan namizədlər ixtisas seçimi zamanı Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasını seçməlidir. Namizədlər Hərbi feldşer işi ixtisasına Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahan nəticələri əsasında qəbul edilirlər.

Hərbi-həkim komissiyasının rəyinə əsasən qeyd olunan ixtisas üçün yararlı sayılan, ixtisas seçimi zamanı Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasını seçmiş və qəbul üçün keçid balını toplamış namizədlər qeyd olunan ixtisasa qəbul olunur.

Hərbi feldşer işi ixtisasına sənədlərin qəbulu 20 aprel 2021-ci il tarixdən 20 may 2021-ci il tarixədək Naxçıvan Tibb Kollecində aparılacaq.

***Əlaqə nömrələri: 545-03-53***
***545-03-52***

# AFFA nümayəndəsi Naxçıvanda

*Naxçıvan Futbol Federasiyasının qapıçılar üzrə koordinatoru, "Araz Naxçıvan" Peşəkar Futbol Klubunun qapıçı məşqçisi Amil Ağacanov UEFA-nın "B" kateqoriyalı məşqçi lisenziyası üçün təhsilini davam etdirir.*



Ötən ay Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) tərəfindən qapıçılar üzrə məşqçilər üçün keçirilən kursun 1-ci modulunda iştirak edən məşqçimiz hazırda kursdakı təhsilini distant şəkildə davam etdirir. Proqrama uyğun olaraq o bu dəfə ev tapşırığını icra edib. Ötən gün AFFA məşqçilərin maarifləndirilməsi departamentinin qapıçılar üzrə təlimatçısı Üzeyir İbrahimov tapşırığın praktik icrasını izləyərək müvafiq qeydlərini aparıb. Mütəxəssisdən aldığımız məlumata əsasən Avropa Futbol Birliyi İttifaqının (UEFA) məsləhətləşmələrinə uyğun olaraq məşqçi ilə maarifləndirici söhbətlər aparılıb. Məşqçilik kursu 5 moduldan ibarətdir. Əlavə olaraq qapıçı məşqçilərə müvafiq ev tapşırıqları verilir, praktik və nəzəri məşğələlər təşkil olunur. Son modulda imtahan götürüləcək. İmtahanı uğurla başa vuran məşqçilərə UEFA-nın qapıçılar üzrə "B" kateqoriyalı məşqçi lisenziyası veriləcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 319